AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2023, № 1 (275), 70-76
doi.org/10.48445/d4031-4827-4173-w

DİLÇİLİK MƏSƏLƏLƏRİ

# "Kitabi-Dədə Qorqud" dastanında işlənən qoşmaların qrammatik-semantik xüsusiyyətləri

***Zülfüqar Novruzov***
Magistrant, Bakı Avrasiya Universiteti. Azərbaycan.
E-mail: znovruzov05@gmail.com
https://orcid.org/0000-0002-4720-7039

**XÜLASƏ**
"Kitabi-Dədə Qorqud" dastanı türk dünyasının ən qədim yazılı abidələrindən biridir. Bu dastan sayəsində türk tarixi və mədəniyyəti, erkən orta əsrlər coğrafiyası, eləcə də qədim türk dilləri haqqında dəyərli məlumatlar əldə etmək mümkündür. Epos yazıldığı dövrün əsas dil materiallarından biri kimi XI-XII əsrlərin dil mənzərəsini yaratmaq üçün əlverişli mənbə rolunu oynayır. Burada dilin bütün səviyyələrinə (fonetik, leksik, qrammatik, sintaktik) aid çox sayda nümunələr verilmişdir. Bu isə müasir və qədim türk dilləri arasında paralel müqayisə apararaq dilin inkişaf meyillərini müəyyən etməyi asanlaşdırır. Dastanda əsas nitq hissələri ilə yanaşı, 76 köməkçi nitq hissəsi (təkrar daxil olmaqla), əsasən də xeyli sayda qoşma və bağlayıcılardan istifadə olunmuşdur. Əsas nitq hissələrinin köməkçi nitq hissələrinə nisbətən çoxluq təşkil etməsinə baxmayaraq, işlənən köməkçi nitq hissələri vasitəsilə onların yaranma tarixi, fonetik dəyişikliklər haqqında məlumat əldə etmək olar.

**AÇAR SÖZLƏR**
"Kitabi-Dədə Qorqud" dastanı, köməkçi nitq hissələri, qoşma, türk yazılı abidələri, qrammatik-semantik məna

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 22.01.2023
qəbul edilib: 05.03.2023

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2023, NO. 1, VOL. 275, 70-76
doi.org/10.48445/d4031-4827-4173-w

LINGUISTIC ISSUES

# Grammatical-semantic characteristics of couplets used in the epic "Kitabi-Dada Gorgud"

***Zulfugar Novruzov***
Master student, Baku Eurasian University. Azerbaijan.
E-mail: znovruzov05@gmail.com
https://orcid.org/0000-0002-4720-7039

**ABSTRACT**
"Kitabi-Dada Gorgud" epic was one of the greatest written monuments of the Turkic world. Thanks to this epic, we get valuable information about Turkish history, culture, geography of the early Middle Ages, as well as the Turkish language in which the epic was written. Being one of the main language materials of the period in which the epic was written, it plays the role of a convenient source for creating the language landscape of the XI-XII centuries. Examples of all levels of the language (phonetic, lexical, grammatical, syntactic levels) are given in abundance from the epic. Thanks to this, it becomes easier to determine the development trends of the language by drawing a parallel between modern Turkic languages and ancient Turkic. Along with the main parts of speech, supporting parts of speech are elaborated in the saga. In addition to the main parts of speech, 76 auxiliary parts of speech (including repetition) were used in the saga, mainly a large number of conjunctions and conjunctions.

**KEYWORDS**
"Kitabi-Dada Gorgud" epic, auxiliary parts of speech, couplet, Turkish written monuments, grammatical-semantic meaning

**ARTICLE HISTORY**
Received: 22.01.2023
Accepted: 05.03.2023

## Giriş / Introduction

"Kitabi-Dədə Qorqud" dastanı türk dünyasının ən qədim və böyük ədəbi-bədii yazılı abidəsidir. Dastanın əhəmiyyətindən danışarkən biz ona sadəcə bir bədii ədəbiyyat nümunəsi kimi yanaşsaq, təbii ki, dastanın əsl mahiyyətini aça bilmərik. Çünki bu dastan bəhs etdiyi dövrün yalnız ədəbiyyat nümunəsi olmamış, türk xalqlarının tarixi, mədəniyyəti, coğrafiyası haqqında geniş məlumatlar əldə etməyə şərait yaratmışdır. Əsərin dili sadə olduğu qədər də istifadə edilmiş təbiət təsvirləri, poetizmlər sayəsində olduqca canlıdır. Dastanda qədim türk xalqlarının gündəlik həyat şəraiti ilə bağlı məişət səhnələri verilmişdir.

"Kitabi-Dədə Qorqud" dastanı yazıldığı dövrün əsas dil materiallarından biri olmaqla, XI-XII əsrin dil mənzərəsini yaratmaq üçün əlverişli mənbə rolunu oynayır. Dastanda dilin bütün səviyyələrinə aid (fonetik, leksik, qrammatik, sintaktik) çoxsaylı nümunələr verilmişdir. Bunun sayəsində də müasir və qədim türk dilləri arasında paralel müqayisə aparmaqla dilin inkişaf tendensiyalarını müəyyən etmək asanlaşır.

Dastanda əsas nitq hissələri ilə yanaşı, köməkçi nitq hissələrindən də istifadə olunmuşdur. Düzdür, say etibarı ilə əsas nitq hissələri çoxluq təşkil etsə də, istifadə olunan köməkçi nitq hissələri vasitəsi ilə onların tarixi və fonetik dəyişmələr haqqında fikir söyləmək mümkündür. Dastanda 76 (təkrarla birlikdə) köməkçi nitq hissəsi işlənmişdir. Statistik məlumatlara nəzər saldıqda, xüsusən də, qoşma və bağlayıcıların sayca çoxluğu müşahidə olunur.

"Kitabi-Dədə Qorqud", eləcə də digər qədim yazılı türk mənbələrində daha işlək olan nitq hissələrindən biri qoşmadır. Leksik mənalı sözlərin müstəqil mənasını itirərək ismin hal şəkilçilərinə birləşib yeni qrammatik məna yaratması iltisaqi dillər üçün yad hadisə deyil. Məhz türk dillərində qoşmaların yaranma tarixini tədqiq edərkən bu hadisənin doğruluğunun bir daha şahidi oluruq. Tanınmış türkoloq, dilçi alim H.Mirzəzadə həmin məsələ ilə bağlı geniş tədqiqat işi aparmış və qoşmanın köməkçi nitq hissəsi kimi tədqiqinin əhəmiyyəti haqqında qeyd etmişdir. Onun fikrincə, qoşmanın tarixi və mənşəyinin, ifadə etdiyi mənanın, daşıdığı vəzifənin inkişaf nöqteyi-nəzərdən öyrənilməsi dil tarixi üçün olduqca əhəmiyyətlidir. Qədim türk yazılı abidələrində və "Kitabi-Dədə Qorqud" dastanında qoşmalar say etibarı ilə az olmasına baxmayaraq, üzərinə düşən qrammatik-semantik yük baxımından demək olar ki, digər köməkçi nitq hissələrindən geri qalmır. Professor Ə.Dəmirçizadə bu barədə qeyd edir: *"Kitabi-Dədə Qorqud" dastanlarında qoşma və bağlayıcıların, əsasən, sadə növləri vardır. Demək olar ki, büllurlaşmış düzəltmə və mürəkkəb qoşmalar, eləcə də bağlayıcılar yox dərəcəsindədir"* [3, s.9].

Qoşmalar bütün dövrlərdə öz orjinallığını qoruduğu kimi, dilin inkişafı ilə paralel olaraq öz semantikasını genişləndirmiş, keyfiyyətcə saflaşmış, eyni səs və hərf tərkibinə malik şəkilçi və digər köməkçi nitq hissələrindən fərqlənmişdir. Leksemlər kimi qoşmaların da zamanla yenilənməsinin, arxaik qoşmalardan təmizlənməsinin şahidi oluruq. "Kitabi-Dədə Qorqud" dastanının dilində işlənən qoşmalar çoxfunksiyalılığı ilə seçilir. Qoşmaların, əsasən, bağlayıcı və ədatlarla eyniliyi müşahidə olunur. Çoxfunksiyalılığına görə onlar aşağıdakı məna növlərinə ayrılır:

- Zaman bildirən qoşmalar;
- Məkan bildirən qoşmalar;
- Səbəb-məqsəd bildirən qoşmalar.

Dastanda zaman bildirən qoşmaların daha sıx işləndiyini müşahidə edirik.

*Bərlu, bəri* qoşması. Qeyd edilən bu qoşmaların bir çoxu türkdilli ədəbiyyat nümunələrində özünü göstərərək müxtəlif fonetik şəkillərdə istifadə olunmuşdur. *"Türkmən dilində bu qoşma [bə:ri], noqay, qaraqalpaq, kumuk, özbək, qırğız və altay dillərində [beri], Azərbaycan türkcəsində [bəri], qaqauz dilində [be:ri], tuva türkcəsində [be:r] və müxtəlif fonetik formalarda tələffüz olunur"* [3, s.87]. Bu qoşmaların etimologiyasına nəzər yetirsək, onların *yeru/geru* zərflərindən yarandığını müşahidə edərik. Lakin hansı şəraitdə yaranması və formalaşması haqqında yetərli faktlar olmadığı üçün bu qoşmalar haqqında dəqiq fikir söyləmək mümkün deyildir. *Bəri* qoşması "deyin" mənasında işlənir. Dastanda bu qoşmalar 18 dəfə "*bəru gəlgil"* formasında işlənmişdir. Amma onlara zaman mənasında cəmi 3 yerdə təsadüf olunur.

*Ala/ələ* qoşması. Daha çox işlənmə yerinə görə istiqamət və tərəf anlamında işlənmiş bu qoşmalara dastanın dilində tez-tez rast gəlirik. Onlar köməkçi nitq hissəsi olmalarına baxmayaraq, başqa istiqamət bildirən sözlərlə sinonimik cərgə yaratmışdır. Elə bu faktdan çıxış edərək qədim türkcədə qoşmaların möhkəm semantikaya malik olduğunu söyləyə bilərik. Türkoloqlar da bu sözün qədim semantikasının sabitliyindən bəhs etmiş və öz semantik mənasına görə tərəf, istiqamət məzmununda çıxış etdiyini qeyd etmişlər. Məşhur türkoloq A.V.Qaben bu qoşmaların semantik mənasından bəhs edərkən onlara: "alın-tərəf, səmt, alt tərəf" kimi izah vermişdir. Dastanın dilini ətraflı tədqiq edərkən, Qabenin fikirlərinin həqiqəti əks etdirdiyini görürük. Qoşmanın semantikasında onun aşağı tərəfi, aşağı səmti göstərməsi elmi cəhətdən məntiqlidir. *"Dastanda ala bir neçə yerdə qoşma kimi, bir çox yerdə isə rəng anlamında çıxış etmişdir. Bu fakt əsasında qeyd etmək olar ki, ala qoşmasının təkcə sinonimlik yox, həm də omonimlik xüsusiyyəti vardır"* [8, s.114]. Bu və digər dil faktları açıq-aşkar sübut edir ki, köməkçi nitq hissələrindən

olan qoşmanın təkcə qrammatik mənası yox, həmçinin semantik məna çalarları da rəngarəngdir.

*Taşı* qoşması. "Dışarı", "çöl tərəf" mənasında verilmişdir. Bu cür fonetik şəkildə olan qoşma semantik funksiyada yalnız bir yerdə işlənmişdir: *"Ol məlun dəxi kaladan taşı gəlüp bunlara müqabi oldu, ər oldu"*.

*İçre* qoşması. *İç+re* qoşması içində, arasında mənasını bildirir. Yazılı abidələrdə bu qoşmanın antonimi kimi *taşı, taşra, daşra* qoşmaları çıxış edir ki, hal-hazırda bu qoşmaların heç biri müasir Azərbaycan ədəbi dilində, dialekt və şivələrində istifadə olunmur. Onlar arxaik leksikanın tərkib hissəsinə çevrilmişdir. Məşhur fransız türkoloqu J.Deni *içre* qoşması haqqında öz qeydlərində yazırdı: *"Bu qoşma türk yazılı abidələrində, eləcə də "Kitabi-Dədə Qorqud" dastanında işlənmiş, həmin qoşmaya çağatay və uyğur dillərində rast gəlinir"*.

*Taşı* və *içrə* qoşmaları semantik cəhətdən antonimlik təşkil edirlər. Belə ki, *taşı* dışarı, *içrə* isə içəridə mənasını verir.

Görkəmli türkoloq və dil tarixçisi professor Hadı Mirzəzadə də *içre* qoşmasının "iç" mənası daşıyan müstəqil sözdən yarandığını qəbul edir və bu sözün tarixi abidələrin dilində nadir hallarda işləndiyini qeyd edir: *"Belə başa düşmək olar ki, iç qoşması məzmunca ismin yerlik hal şəkilçisi da$^{2}$-nin sinonimi olduğundan, eyni zamanda işlənməsinə ehtiyac yoxdur"*.

*Üçün/içün* qoşması. Dastanda işlənən bu qoşma səbəb-məqsəd bildirir. Qoşma dil tarixinə həsr edilmiş əsərlərdə təhlil edilsə də, onun mənşəyi və semantik funksiyası ilə bağlı dəqiq fikirlər söylənilməmişdir. *İl, kibi, barü/bərlü* və s. bu kimi bəzi qoşmalar vardır ki, onlar həm omonim, həm də başqa qoşmalarla sinonim olaraq dastan dilində aktiv olmuşlar. Lakin onların bəziləri az işləkdirlər, bu da müxtəlif səbəblərlə izah edilə bilər. *"Az işlək olan qoşma artıq öz sinonimi tərəfindən sıxışdırılır, aktiv fonddan çıxardılır, ya yeni yaranmağa başladığı dövrdə aktivlik qazana bilmir, ya da omonim mənası qalır, qoşma kimi semantik funksiyası dayanır. Məsələn, calayın/ciləyın/layın qoşması aktivlik qazana bilməmiş və kimi qoşması tərəfindən sıxışdırılmışdır, hətta o dərəcədə sıxışdırılıb aktiv fonddan çıxardılıb ki, nə ədəbi dildə, nə də xalq danışıq dilində qorunub saxlanılmamışdır"* [4, s.154].

*Taşı və içre* qoşmaları müstəqil mənalarını bir çox türk dillərində qoruyub saxlamalarına baxmayaraq, qoşma kimi passiv fonda keçmişlər. *Ala/ələ* qoşmasının omonim mənası, yəni rəng bildirən semantikası qorunub saxlanılmışdır, lakin qoşma kimi semantik funksiyası dayandırılmışdır.

Dastan dilində "kimi", "və", "ilə" qoşmaları daha fəal şəkildə istifadə edilir. *"Aktivliyi ilə seçilən kimi, və, ilə qoşmaları müasir türk dillərinin əksəriyyətində öz*

*aktivliyini qoruyub saxlayır. Üçün qoşması da dastan dilində bir o qədər aktiv olmasa da, müasir türk dillərində kifayət qədər aktivdir”* [2, s.274]. Dastan dilində qoşma bir nitq hissəsi kimi formalaşmağa başlayır, hətta bəzi qoşmalar öz intensivliyi ilə seçilir. Lakin ümumilikdə aktivlik bütün qoşmalar üçün xarakterik deyildir. Müasir dilimizdə, eləcə də digər türk dillərində işlənən qoşmaların bir çoxuna dastan dilində rast gəlinir.

**Nəticə / Conclusion**

Ümumilikdə, qoşmalar öz zəngin qrammatik-semantik funksiyalarının rəngarəngliyinə görə digər köməkçi nitq hisslərindən fərqlənirlər. Apardığımız tədqiqat işi və türkoloqların fikirlərinə əsasən söyləmək olar ki, “Kitabi-Dədə Qorqud”, eləcə də digər yazılı türk abidələrində işlənmiş qoşmaların çox hissəsi müstəqilliyini qoruyaraq müasir türk dillərində, həmçinin onların dialekt və şivələrində aktiv şəkildə istifadə edilir. Bəzi qoşmaların semantik mənaları və fonetik tərkibində müəyyən dəyişmələr baş vermişdir. Onların çox hissəsi olduğu kimi və ya müəyyən dəyişikliklərə uğrayaraq müasir dövrdə işləkliyini qorusa da, bəziləri tamamilə unudulmuş, yazılı və şifahi nitqdə işlənməyərək arxaikləşmişdir. Müstəqil leksem və qoşmaların arxaikləşməsi eyni səbəblərdən baş vermişdir: sinonim cütləri tərəfindən sıxışdırılaraq dildən çıxarılmış və omonimlərin birinin daha sabit semantikasına görə bəzi qoşmalar arxaikləşmişdir.

**İstifadə edilmiş ədəbiyyat / References**


1. Ağayeva F. (2018). "Kitabi-Dədə Qorqud" dastanlarındakı köməkçi nitq hissələrinin praqsemantik baxımdan təhlili. Bakı, Dil və ədəbiyyat beynəlxalq elmi-nəzəri jurnal, № 4, 108 s.
2. Azərbaycan dilinin qrammatikası. (1951). I hissə. "Azərbaycan SSR EA" nəşriyyatı. 583 s.
3. Dəmirçizadə Ə. (1999). "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı, Elm. 140 s.
4. Xudiyev N. (2012). Azərbaycan ədəbi dili tarixi. Ali məktəblər üçün dərslik. Bakı, Elm və təhsil. 686 s.
5. Kitabi-Dədə Qorqud. (2004). Əsil və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər" nəşriyyatı. 308 s.
6. Rüstəmova Q. (2013). Köməkçi nitq hissələrinin tədrisi. Bakı, Şərq-Qərb. 349 s.
7. Türkcə sərv-nərv. (1924). Bakı, 263 s.
8. Zeynalov F. (1971). Müasir türk dillərində köməkçi nitq hissələri. Bakı, 312 s.